*Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı, Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq.*

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**

# Diasporumuz mütəşəkkil qüvvəyə çevrilir

Azərbaycan diasporunun inkişafı və mütəşşəkkil qüvvəyə çevrilməsi məsələsi 2001-ci ildə Dünya Azərbaycanlılarının Bakıda keçirilən I Qurultayından sonra dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Yüksək səviyyədə təşkil olunan bu mötəbər məclisə soydaşlarımız böyük həvəslə gəlmiş, Vətən qarşısında hesabatlarla çıxış etmişlər. I Qurultay dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin yaranması və inkişafı sahəsində mühüm əhəmiyyətə malik olmaqla yanaşı, müstəqil Azərbaycanın ictimai-siyasi həyatında tarixi hadisəyə çevrilmişdir.

"Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu bir daha təsdiq edir ki, dünya azərbaycanlılarının milli birliyinin və tərəqqisinin təminatçısı Azərbaycan Respublikasıdır.

Azərbaycan diasporu özünün inkişaf və təkamül mərhələsini yaşayır. Diasporumuzun inkişafında və güclənməsində, Azərbaycanın təbliğində, ölkəmiz barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında xaricdə təhsil alan gənclər mühüm rol oynayır.

16 mart 2006-cı ildə Dünya Azərbaycanlılarının Bakıda II Qurultayı keçirilmişdir. Bu qurultayda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının sədri seçilmişdir.

Dünya Azərbaycanlılarının II Qurultayına ümumilikdə 1231 nümayəndə qatılmışdır. 49 xarici ölkədən 593 nümayəndə və 388 nəfər qonağın iştirak etdiyi qurultayda Azərbaycan Respublikası 27 dövlət və hökumət qurumlarından, ictimai təşkilatlardan, elm, təhsil, mədəniyyət müəssisələri və yaradıcı təşkilatlardan, siyasi partiyalardan 638 nümayəndə ilə təmsil olunmuşdur.

Qurultay nümayəndələri və qonaqlar yaşadıqları ölkələrin ictimai-siyasi, iqtisadi və mədəni həyatının müxtəlif sahələrində fəal iştirak edən, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə daim dəstək verən tanınmış alimlər və ziyalılar, iş adamları, müxtəlif ölkələrin parlament üzvləri, siyasi və ictimai xadimlər, bir sözlə, Azərbaycanı sevən, onun inkişafını və tərəqqisini arzulayan insanlar idi. Qurultayda xarici ölkələrin - Türkiyə, Latviya, Estoniya, Litva, Ukrayna, Moldova, Belçika, Avstriya, İsveçrə, Kanada ali qanunvericilik orqanlarının üzvlərindən ibarət 64 nəfər qonaq qismində iştirak etmişdir.

Dünya Azərbaycanlılarının II Qurultayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olunmuş, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən ətraflı söz açılmış, dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına, BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri Təşkilatına (UNESCO) müraciət ünvanlanmışdır.

Qurultayda Azərbaycan və türk diaspor təşkilatları arasında sıx əməkdaşlığın yaradılmasının zəruriliyi də vurğulanmışdır. Qeyd olunmuşdur ki, ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyev xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması, eyni zamanda türk xalqlarının birgə diaspor təşkilatlarının və lobbiçilik fəaliyyətinin formalaşmasına xüsusi diqqətlə yanaşmışdır.

Son dövrlərdə Azərbaycan və türk icmaları arasında getdikcə inkişaf etməkdə olan əməkdaşlıq əlaqələri güclü Azərbaycan lobbisinin formalaşması üçün zəmin yaradır. Müasir dünyanın reallıqlarından çıxış edərək, tam məsuliyyətlə demək olar ki, hazırkı şəraitdə Azərbaycan və türk diaspor təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi, onlar arasında əməkdaşlığın inkişafı hər iki xalqın maraqlarına xidmət edir. Türkiyə və Azərbaycanın milli mənafeləri, dövlət maraqları, tarixin sınaqlarından çıxmış dostluq bağları iki xalqın diaspor üzvlərinin sıx əməkdaşlığını, taleyüklü məsələlərin həllində birgə fəaliyyətini zərurətə çevirmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının II Qurultayındakı tarixi nitqi xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması və diaspor quruculuğu siyasətinin yeni mərhələsinin başlıca istiqamətlərini və bu mərhələdə qarşıda duran vəzifələri müəyyənləşdirmişdir. Ölkə başçımızın nitqindəki tövsiyə və tapşırıqlar Azərbaycan diasporunun yeni dövrdəki fəaliyyətinin təməlini təşkil etməklə yanaşı, dünya azərbaycanlılarının birliyinin konseptual əsaslarının milli dövlətçilik ideologiyası müstəvisində formalaşmasının tarixi-siyasi əhəmiyyətini daha dəqiq qiymətləndirmək imkanı yaratmışdır.

Qurultayda Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə bir qrup diaspor fəalları "Şöhrət" ordeni və "Tərəqqi" medalına layiq görülmüşdü.

Dünya Azərbaycanlılarının II Qurultayının yüksək səviyyədə təşkili, bu ali məclisin ictimaiyyət arasında doğurduğu rezonans, qurultayda qəbul olunmuş qərarlar milli diasporumuzun yeni mərhələyə qədəm qoyduğuna geniş imkanlar yaratdı.

Qəbul olunmuş qərarların mahiyyəti, müzakirələrin ümumi gedişi və əldə olunmuş nəticələr dünya azərbaycanlıları arasında davamlı siyasi həmrəyliyin və birliyin təməllərinin kifayət qədər möhkəm olmasını, ictimai statusundan, siyasi baxışlarından, əqidə və dünyagörüşündən asılı olmayaraq azərbaycançılıq ideologiyasının bütün azərbaycanlıları öz ətrafında birləşdirə bilən ümummilli konsepsiya kimi böyük təsir gücünə malik olduğunu təsdiqləmişdir.

Qurultaydakı nitqində Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində bütün dünya azərbaycanlılarının yekdil mövqedən çıxış etmələrini vurğuladı.

Dünya Azərbaycanlılarının II Qurultayı milli birliyin yaradılmasında mühüm rol oynayır. Bu gün harada yaşamasından asılı olmayaraq, bütün soydaşlarımız tarixi vətənlə sıx əlaqələr qurur, diasporumuzun formalaşdırılması və mütəşəkkil qüvvəyə çevrilməsinə maksimum səy göstərir.

**Qədir ASLAN,**
**"Respublika".**

**Respublika.- 2022- ci il.- 16 mart.- S. 7.**